# Azərbaycan iqtisadiyyatında makroiqtisadi davamlılıq

## *Bu, iqtisadi və sosial inkişafın yüksəlişini təmin edir*

**2013-cü ilin yanvar-oktyabr ayları ərzində Azərbaycan iqtisadiyyatı bir daha makroiqtisadi dayanıqlıq və yüksək artım potensialını nümayiş etdirmişdir. Bu dövr ərzində ölkədə 47,6 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Azərbaycanda qeyri-neft sektorunun davamlı olaraq yüksələn xətlə artması və 10 faizlik səviyyəni üstələməsi iqtisadiyyatın modernləşdirilməsi və şaxələnməsi, neft faktorundan asılılığın azaldılması, qeyri-neft sektorunun sürətli inkişafına yönəlmiş iqtisadi inkişaf modelinin uğurla həyata keçirilməsinin nəticəsidir. Qəbul edilən dövlət proqramlarının uğurlu icrası ölkəmizdə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə etməyə imkan verir.**

Azərbaycanın iqtisadiyyatına qoyulan investisiyalar regionlarda infrastruktur, kommunal, sosial xidmət obyektlərinin tikintisinin bir neçə dəfə artmasına və xidmət sektorunda keyfiyyətin yüksəlməsinə təkan verir. Hazırda qeyri-neft sektorunun orta müddətli perspektiv hədəfinə çatmaq istiqamətində atılan ən mühüm addımlardan biri də daxili və xarici investisiyaların təşviqi siyasətinin davam etdirilməsi, o cümlədən dövlət investisiyalarının artırılmasıdır.

Nəhəng investisiya proqramlarının həyata keçirilməsi ilə ölkəmizdə bütün sahələrə qoyulan sərmayələrin həcmi artır. Məsələn, ilin ilk doqquz ayında inşaat sektorunda bütün maliyyə mənbələrindən əsas kapitala 13,1 milyard manat həcmində, yaxud 16,6 faiz çox vəsait yönəldilmişdir. Vəsaitin 4,9 milyard manatı (37,1 faizi) qeyri-dövlət bölməsinə, 8,2 milyard manatı isə dövlət bölməsinə məxsus idarə və təşkilatlar tərəfindən qoyulmuşdur. Bilavasitə tikinti-quraşdırma işlərinə 8,7 milyard manat sərf olunmuşdur. Bu, ümumi vəsaitin 66,7 faizini təşkil etmişdir. İstifadə edilmiş vəsaitin 51,1 faizi və ya 6,7 milyard manatı məhsul istehsalı obyektlərinin inşasına sərf olunmuşdur. Əsas kapitala yönəlmiş vəsaitin 9,7 milyard manatını və ya 74,2 faizini daxili vəsait, 3,4 milyard manatını xarici vəsait təşkil etmişdir. 2013-cü ildə inşası davam etdirilən və yeni tikilən obyektlər üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin 5 milyard 980,6 milyon manatından istifadə olunmuşdur.

2013-cü ilin əvvəlindən ötən müddət ərzində ümumi sahəsi 1 milyon 724,4 min kvadratmetr olan yaşayış evləri, 26996 şagird yerlik ümumtəhsil məktəbləri, hər növbədə 226 nəfərin qəbulu üçün nəzərdə tutulmuş ambulator-poliklinika müəssisəsi, 1050 çarpayılıq xəstəxana, 1751 yerlik məktəbəqədər təhsil müəssisəsi, 864 yerlik klub, Bakı şəhərində Gəmi Təmiri və Gəmiqayırma İstehsalat Birliyi, Gəmiqayırma zavodu, Qaz turbinli İstilik Elektrik Stansiyası, "Alov Qüllələri" kompleksindəki "Fairmont Baku" oteli və s. obyektlər istifadəyə verilmişdir.

Bu gün Azərbaycanda ümumi daxili məhsulun əsas hissəsi qeyri-neft sektorunda formalaşır. Bu, ölkəmizdə uğurla həyata keçirilən iqtisadi islahatların müsbət nəticəsidir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ÜDM istehsal sahələrində 5 faiz, xidmət sahələrində 6,7 faiz artmışdır. Qeyri-neft sektorunda əlavə dəyər istehsalı 9,8 faiz, neft sektorunda isə 1 faiz artmışdır. Sənaye məhsulunun 74,4 faizi mədənçıxarma bölməsində, 19,9 faizi emal bölməsində, 5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0,7 faizi su təchizatı tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olunmuşdur. Mədənçıxırma bölməsində 36,1 milyon ton neft, 14,6 milyard kubmetr əmtəəlik qaz hasil edilmişdir. Emal bölməsində qida məhsulları istehsalı 3,7 faiz, içki istehsalı 6,4 faiz, dəri və dəri məmulatları, ayaqqabı istehsalı 31 faiz, poliqrafiya məhsulları istehsalı 44,8 faiz, neft məhsulları istehsalı 6,1 faiz, kimya sənayesi məhsulları istehsalı 18,4 faiz, əczaçılıq məhsulları istehsalı 15,8 faiz, tikinti materialları istehsalı 14,4 faiz, metallurgiya sənayesi məhsulları istehsalı 0,3 faiz, elektrik avadanlıqları istehsalı 1,9 faiz, maşın və avadanlıqlar istehsalı 12,3 faiz, avtomobil və qoşquların istehsalı 33,5 faiz, sair nəqliyyat vasitələri istehsalı 2,4 dəfə, zərgərlik, musiqi, idman və tibb avadanlıqları istehsalı 1,5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri 28,5 faiz artmışdır.

2013-cü ilin yanvar-oktyabr ayları ərzində əhaliyə 15,6 milyard manatlıq istehlak malları satılmışdır. Pullu xidmətlərin həcmi isə 6,9 faiz artaraq 5,1 milyard manata çatmışdır. Əhalinin istehlak bazarından aldığı malların 8,1 milyard manatını ərzaq məhsulları, 7,5 milyard manatını qeyri-ərzaq malları təşkil etmişdir.

İqtisadiyyatı şaxələnən, qeyri-enerji sektorunda - kənd təsərrüfatında emal və qida sənayesində, turizm sektorunda, İKT sahəsində əldə edilən uğurlar, göstəricilər yüksək səviyyədədir. Təsadüfi deyil ki, artıq bu il Azərbaycanda qeyri-neft sahəsi məhsullarının ixracının 20 faiz artacağı proqnozlaşdırılır. İqtisadiyyatın şaxələndirilməsi kursunun həyata keçirilməsində dünyanın ən iri maliyyə təsisatları, məsələn, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanı dəstəkləyir. Belə ki, AYİB rəhbərliyi Azərbaycan hökuməti ilə üçillik əməkdaşlıq haqqında yeni strategiyanı bu ilin sonuna qədər təsdiq etməyə çalışır. Ekspertlərin fikrincə, qeyri-neft sektorunun inkişafı və onun şəffaflığının təmin edilməsi bu əməkdaşlığın prioriteti olacaqdır.

Təbii ki, müsbət və uğurlu nəticələri təsdiq edən statistik məlumatları çox göstərmək olar. Təkcə 2013-cü ildə İKT sahəsi 12 faiz inkişaf etmişdir. Bu sahənin Azərbaycan iqtisadiyyatının inkişafı üçün əsas istiqamətlərdən biri olduğunu vurğulayan dövlət başçısı cənab İlham Əliyev bildirib ki, bu sektorun çox böyük perspektivi vardır: "Bu, ideyalar yaradan, ölkəmizdə ümumi təhsilin səviyyəsinin yüksəlməsinə təkan verən sektordur, bizim aparıcı beynəlxalq elmi araşdırmalara qoşulmağımıza kömək edir. Eləcə də əlbəttə ki, iqtisadiyyatın, xüsusən də qeyri-neft sahəsinin inkişafı üçün informasiya texnologiyaları sektoru böyük əhəmiyyətə malikdir".

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

Respublika.- 2013.- 5 dekabr.- S.1.